2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 noyabr 2014-cü il tarixli 11 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 100 saylı Şəmkir-Daşkəsən seçki dairəsindən Qapanlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Süleymanov Zakir Musa oğlu 25 noyabr 2014-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək Hüseynov Şahəddin Həsən oğlunun əvvəllər cinayət məsuliyyətinə cəlb edildiyini bildirmiş və onun bələdiyyə üzvlüyünə namizədliyinin qeydə alınması barədə dairə seçki komissiyası qərarının ləğv edilməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Müraciət etmiş şəxsə araşdırma aparılması barədə məlumat verilmiş, ona araşdırmada iştirak etmək hüququ izah edilmişdir.

Z.M.Süleymanov müraciətini onunla əsaslandırmışdır ki, 100 saylı Şəmkir-Daşkəsən seçki dairəsindən Qapanlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Ş.H.Hüseynov məhkəmənin qanuni qüvvədə olan hökmü ilə islah işlərinə məhkum edilmiş, eyni zamanda mülki iddia üzrə dəymiş ziyanı bu günədək ödəməmişdir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi tərəfindən təqdim edilmiş arayışdan görünür ki, Ş.H.Hüseynov Şəmkir rayon məhkəməsinin 3 avqust 2012-ci il tarixli hökmünə əsasən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1-ci və 46.1-ci maddələri ilə 3 il müddətinə dövlət və yerli özünüidarə orqanlarında müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 2 il islah işləri cəzasına məhkum edilmiş, Gəncə Apellyasiya Məhkəməsinin 19 sentyabr 2012-ci il tarixli qərarı ilə həmin hökm dəyişdirilərək 1 il müddətinə dövlət və yerli özünüidarə orqanlarında müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 1 il islah işləri cəzasına məhkum olunmuşdur.

Ş.H.Hüseynovun məhkum olunduğu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1-ci maddəsi həmin Məcəllənin 15.4-15.5-ci maddələrində nəzərdə tutulan cinayətlərin təsnifatına aid deyildir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 13.3.1-ci və 13.3.2-ci maddələrinə görə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslərin və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4-15.5-ci maddələrində nəzərdə tutulan cinayətlərə (ağır, xüsusilə ağır) görə məhkum olunmuş şəxslərin bələdiyyə üzvü seçilmək hüququ (passiv seçki hüququ) yoxdur.

Müraciətin hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması nəticəsində dairə seçki komissiyasının mübahisələndirilən qərarının dəyişdirilmədən saxlanılması üçün hüquqi əsasların olması müəyyən edilmişdir.

Göstərilənlərə əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 100 saylı Şəmkir – Daşkəsən seçki dairəsi dairə seçki komissiyasının 22 noyabr 2014-cü il tarixli 21/59 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənlər əsas götürülərək Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 13.3.1-ci, 13.3.2-ci, 19.4-cü, 28.2-ci, 28.4-cü, 60-cı, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və

müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a   a l ı r :**

1. 100 saylı Şəmkir – Daşkəsən seçki dairəsindən Qapanlı bələdiyyəsi üzrə qeydə alınmış namizəd Süleymanov Zakir Musa oğlunun 25 noyabr 2014-cü il tarixli 11 saylı şikayəti əsassız olduğundan təmin edilməsin.

2. 100 saylı Şəmkir – Daşkəsən seçki dairəsinin 22 noyabr 2014-cü il tarixli 21/59 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Arifə Muxtarova

Katib Mikayıl Rəhimov